# Behbud ağa Şahtaxtinski və Naxçıvanın tarixi taleyi



Azərbaycanın ictimai-siyasi həyatında, diplomatiya və dövlətçilik tarixində özünəməxsus yeri, rolu və xidmətləri olan Behbud ağa Şahtaxtinskinin anadan olmasından 130 il keçir. Bu münasibətlə "Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 21 fevral 2011-ci il tarixdə Sərəncam imzalamışdır. Həmin sərəncamda deyilir: "...Behbud ağa Şahtaxtinski hansı vəzifədə işləməsindən asılı olmayaraq öz prinsiplərinə sadiq qalmış, milli mənafelər uğrunda çalışmış, Azərbaycanın taleyi ilə bağlı məsələlərdə əsl vətənpərvərlik mövqeyi nümayiş etdirmişdir".

XX əsrin 20-ci illərində qədim tarixə malik olan Naxçıvan diyarında ictimai-siyasi vəziyyət çox mürəkkəb və kəşməkəşli olmuşdur. Erməni daşnaklarının bu bölgəni ələ keçirmək üçün basqınlar etməsi, xarici dövlətlərin müdaxiləsi, ermənilərin bu dövlətlərin əli ilə Naxçıvana yiyələnmək cəhdi və Azərbaycan Xalq Cümhuriyyətinin qarşılaşdığı çətinliklər ucbatından bu diyara lazımi kömək edə bilməməsi vəziyyəti xeyli mürəkkəbləşdirirdi. Lakin bütün bunlara baxmayaraq, Naxçıvanın əhalisi bu çətinliklərə mərdliklə sinə gərmiş, özünün yeganə xilas yolunu Azərbaycanla birləşməkdə görmüşdür.

Naxçıvan məsələsi, onun tarixi taleyi, gələcək statusu, siyasi mövqeyi XX əsrin 20-ci illərində dönə-dönə müzakirə olunmuşdur. Ən görkəmli dövlət xadimləri, diplomatlar Naxçıvan məsələsi ilə məşğul olmuşlar. Bölgənin gələcək taleyində, onun Azərbaycanın tərkibində muxtar respublika kimi qalmasında müstəsna xidmətləri olan görkəmli şəxsiyyətlərdən biri də Behbud ağa Şahtaxtinskidir.

Onun rəhbərliyi və iştirakı ilə hazırlanan sənədlərdə, müzakirə olunan məsələlərdə ölkəmizin və xalqımızın milli mənafeləri qorunmuşdur. Qeyd etməliyik ki, Behbud ağa Şahtaxtinski "Rusiya və Azərbaycan SSR arasında "Hərbi-siyasi ittifaq haqqında" müqaviləyə dövlət adından imza atarkən mürəkkəb vəziyyətdə mövcud şəraitin verdiyi imkanlardan bacarıqla istifadə edərək, mümkün olduqca ölkənin müəyyən qədər geniş hüquqlara malik olmasının dövlətlərarası sənəddə öz əksini tapmasına nail olmuşdu.

O, özünün düşünülmüş və incə siyasəti, mahir diplomatik fəaliyyəti ilə Azərbaycanı bir sıra ümumittifaq və beynəlxalq təşkilatlarda uğurla təmsil etmişdir. Azərbaycan SSR-də bir sıra məsul vəzifələri yerinə yetirməklə yanaşı, Rusiya və Türkiyə ilə münasibətlərin qurulmasında, ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə prinsipial mövqe nümayiş etdirmişdir. Behbud ağa Şahtaxtinski Azərbaycan SSR-in Sovet Rusiyasında ilk səlahiyyətli nümayəndəsi kimi bu dövlətin rəhbərləri ilə danışıqlar aparmış, Azərbaycan həqiqətlərini onlara çatdırmışdır. O, V.İ.Lenin və G.Çiçerinə yazdığı məktublarda Sovet Rusiyasının rəhbərləri qarşısında ərazilərin itirilməsi ilə razılaşmayacaq bir xalqın qəti mövqeyini ortaya qoyurdu. Görkəmli diplomat çox yaxşı bilirdi ki, Sovet Rusiyası ikili mövqe tutur və Azərbaycan torpaqlarının müəyyən hissəsini Ermənistana vermək istəyir. Rusiyanın ikili mövqeyi Naxçıvan və başqa məsələlərdə özünü açıq-aşkar göstərirdi. Sovet Rusiyası 1920-ci il 10 avqustda, 28 oktyabrda daşnak hökuməti ilə, yenə həmin ilin dekabr ayının 2-də Sovet Ermənistanı ilə müqavilə bağladı. Birinci müqavilədə Naxçıvan və Zəngəzur Ermənistana verilir, ikinci müqavilədə isə Naxçıvan Ermənistanın ərazisi kimi göstərilmirdi. 1920-ci il müqaviləsinə Behbud ağa Şahtaxtinski etirazını bildirərək V.İ.Leninə və G.Çiçerinə göndərdiyi teleqramda yazırdı: "Bu müqavilə ilə Ermənistanın daşnak hökuməti erməni xalqı arasında nüfuzunu daha da artırdı... Sovet Rusiyası xalqın tələbinin əksinə olaraq Naxçıvanı daşnaklara verir, halbuki bu yerli müsəlmanların fiziki məhvi təhlükəsini yaradır, necə ki, daşnak Ermənistanında yüzlərlə müsəlman kəndləri dağıdılmışdı".

Göründüyü kimi, XX əsrin 20-ci illərinin əvvəllərində Sovet Rusiyasının Azərbaycanla bağlı ikili siyasətinə Behbud ağa Şahtaxtinski birmənalı olaraq cavab vermişdi. O, sonrakı illərdə də öz qəti mövqeyini davam etdirmişdi. Onun səyi və gərgin mübarizəsi nəticəsində Naxçıvan diyarı Ermənistana verilməmiş və Azərbaycan SSR-in tərkibində muxtar qurum kimi saxlanılmışdır. Cəsarətlə demək olar ki, Naxçıvanı Vedi, Dərələyəz, Zəngəzur aqibətinə düçar olmaqdan məhz Behbud ağa Şahtaxtinski xilas etmişdir.

Ermənistanda Sovet hakimiyyətinin qalib gəlməsi ilə əlaqədar 1920-ci il dekabrın 1-də Bakı Sovetinin təntənəli iclasında Azərbaycan Hərbi İnqilab Komitəsi bəyanatla çıxış etdi. Hərbi İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzası ilə yazılan bəyanat Rusiyanın diqtəsi ilə yazılmışdı və "iki sovet respublikaları arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: "...Bundan sonra heç bir ərazi məsələsi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir. Zəngəzur ərazisində bütün hərbi əməliyyatlar dayandırılır. Sovet Azərbaycanının bütün qoşunları oradan çıxarılır".

Bu bəyanatı eşidən Naxçıvan diyarının əhalisi İnqilab Komitəsindən həmin sənədin məzmunu ilə onları tanış

etmələrini tələb edir. Naxçıvanda yaranmış belə gərgin bir vəziyyətdə Azərbaycan İnqilab Komitəsi Naxçıvanın yerli şəraitinə, adamlarına yaxşı bələd olan Azərbaycan SSR ədliyyə komissarı və İnqilab Komitəsinin üzvü Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərir. Naxçıvana gələn Şahtaxtinski əhali ilə görüşür, söhbətlər edir, onlara həqiqəti deyir və mürəkkəb vəziyyətdən çıxmağın yollarını göstərir: "Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunlar ətrafında sıx birləşməlidir".

1920-ci il dekabrın 2-də RSFSR və Sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişə görə İrəvan quberniyası, Zəngəzur qəzası Ermənistan SSR tərkibinə mübahisəsiz (Rusiya tərəfindən – İ.H.) ərazi kimi daxil olurdusa, Aleksandropol (Gümrü) müqaviləsinə (1920-ci il 2 dekabr, Türkiyə ilə daşnak hökuməti arasında) görə Ermənistan Naxçıvan, Şahtaxtı və Şərur ərazilərinə qarışmamaq, referendumla təyin olunacaq idarə formasınadək həmin ərazidə Türkiyənin himayəsində yerli idarəçilik yaradılmasına razılıq vermişdi.

Ermənistan Respublikası Naxçıvan əhalisinin iradəsi qarşısında dura bilməyib diplomatik fənd işlətdi. Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını və daşnakların ona qarşı ərazi iddialarının olmadığını bəyan etdi. Naxçıvanla bağlı 28 dekabr bəyanatını Ermənistan İnqilab Komitəsi Azərbaycan hökumətinə deyil, Naxçıvana göndərmişdi. Rusiya Avropa dövlətləri tərəfindən təcrid olunduğundan Şərqdə başlıca müttəfiqi Türkiyəni də itirməkdən qorxaraq, Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşıb, bölgənin öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qaldı. Lakin tezliklə Naxçıvanda keçirilən rəy sorğusu erməni xislətli "siyasi uzaqgörənliyə" ümid yeri qoymadı: əhalinin 90 faizindən çoxu Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi. Məhz həmin referendumla Naxçıvan diyarının əhalisinin yekdil rəyi əsasında bu diyar Ermənistanın tabeliyinə verilməkdən xilas edildi və həmişəlik olaraq Azərbaycanın tərkibində qalmaq hüququ qazandı. Behbud ağa Şahtaxtinskinin təşəbbüsü ilə keçirilən bu referendum özünün hərbi-siyasi əhəmiyyətinə görə əvəzolunmaz qiymətə layiqdir.

Naxçıvan məsələsində Nəriman Nərimanovun prinsipial mövqeyi, onun adından Behbud ağa Şahtaxtinskinin Moskvada atdığı addımlar, Moskva danışıqları ərəfəsində Türkiyə nümayəndələrinin Nəriman Nərimanov və Behbud ağa Şahtaxtinski ilə məsləhətləşmələri və seçdikləri xətt şübhəsiz, Moskvanın Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə, nəticə etibarilə bölgəyə Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə təsir etmişdi. Moskva danışıqları ərəfəsində Azərbaycanın Rusiyadakı səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinskinin həm Moskva, həm də Ankara heyətləri ilə apardığı danışıqlar da öz təsirini göstərmişdi.

Rusiya Moskva danışıqlarına Azərbaycan və Ermənistanı da qatmaq istəyirdi. Rusiyanın bu istəyinin bir sıra səbəbləri var idi. Əvvəla, Rusiya Cənubi Qafqazda Türkiyənin nüfuzunun güclənməsini istəmirdi. İkincisi, bolşevik Rusiyası Cənubi Qafqaz respublikalarını Türkiyəyə qarşı qoyub öz istəklərinə və mərkəzləşdirməyə nail olmaq istəyirdi.

Azərbaycanın Rusiyadakı səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski də Moskva konfransında iştirak etmək istəmirdi. Rusiyanın Moskva konfransında Azərbaycanın iştirakı məsələsində təkid etməsinə baxmayaraq, Azərbaycan hökuməti adından Moskvada olan Behbud ağa Şahtaxtinski bunun əleyhinə olmasının səbəbini Moskvadan Azərbaycanın xarici işlər üzrə xalq komissarı M.D.Hüseynova göndərdiyi məktubda aydın izah etmişdir. Türk diplomatları arasında böyük hörməti olan Behbud ağa Şahtaxtinski yazırdı ki, "Şəxsən mən Azərbaycanın konfransda iştirak etməsinə mənfi münasibət bildirməyimi onunla izah etmişəm ki, mənim orada deyəcəyim elə bir şey yoxdur. Hər bir xırda məsələyə görə isə, türklərin əleyhinə getməyimiz, ümumiyyətlə, bizə sərf etmir, çünki mənim onlara böyük təsirim var.

Məni Anadoluda həyata keçirəsi bir çox kombinasiyalar gözləyir və əgər mən konfransda Azərbaycana heç bir dəxli olmayan məsələlərdə türklərə qarşı çıxsam, bütün bu imkanlardan məhrum olaram".

Ümumiyyətlə, Naxçıvanın Azərbaycanın tərkibində saxlanmasına çalışan Behbud ağa Şahtaxtinskinin bu yöndəki fəaliyyəti yüksək qiymətləndirilməlidir. Onun V.İ.Leninə göndərdiyi 1 mart 1921-ci il tarixli teleqram-məktubunda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan, Şimali Qafqaz müsəlman xalqlarının milli tərkibi, sayı, coğrafiyası haqqında məlumat verilir. Həmin teleqram-məktubda Naxçıvanın müqəddəratı ilə bağlı təkliflər irəli sürülürdü.

Məsələlərin qoyuluşu Lenini maraqlandırmış və o, məsələnin RK(b)P MK-nın Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş vermişdir. Moskvaya gəlmiş Türkiyə nümayəndələri ilə də Behbud ağa Şahtaxtinskinin apardığı danışıqlar müvəffəqiyyətlə nəticələnmişdi.

Moskva danışıqlarında Naxçıvanla bağlı məsələ belə qoyulurdu: "Naxçıvan Türkiyənin himayəsi altındadır.

Əgər Azərbaycan bu himayə hüququnu üçüncü dövlətə verməyəcəyi ilə bağlı öhdəlik götürərsə, Türkiyə bu himayə hüququnu Azərbaycana verməyə razıdır”.

Danışıqların nəticəsi olaraq Şərur-Dərələyəz Naxçıvanın ərazisi, Şərur-Dərələyəzi Ermənistandan ayıran xətt isə Naxçıvan-Ermənistan sərhəd xətti kimi göstərilirdi. Moskva danışıqlarında Naxçıvanın ərazisinin sərhədləri müəyyənləşdirilir, Azərbaycanın Naxçıvan üzərindəki “himayə hüququnu üçüncü dövlətə verilməməsi şərti ilə” Naxçıvanın Azərbaycanın himayəsi altında muxtariyyət təşkil etməsi qəbul edilirdi.

1921-ci il martın 16-da RK(b)P MK-nın Siyasi Bürosu Behbud ağa Şahtaxtinskinin təkliflərini bəyənərək Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikası yaradılması haqqında qərar qəbul edir.

1921-ci il martın 16-da imzalanmış “Dostluq və qardaşlıq haqqında” RSFSR-Türkiyə müqaviləsində də Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı. Müqavilənin 3-cü maddəsinə əsasən, Naxçıvan vilayəti bu müqavilənin 1 (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir.

Behbud ağa Şahtaxtinskinin apardığı diplomatik danışıqlar nəticəsində Türkiyə Gümrü müqaviləsinin, o cümlədən də onun Naxçıvan bölgəsinə dair maddələrinin qüvvədən düşməsi ilə razılaşdı.

Cənubi Qafqaz respublikaları arasında mübahisəli olan bir çox məsələlər Moskva müqaviləsi ilə öz hüquqi həllini tapdı. Lakin Sovet Rusiyası Cənubi Qafqaz respublikalarının Türkiyə ilə vahid müqavilə bağlamasını təklif edirdi. Türkiyə isə Cənubi Qafqaz respublikaları ilə ayrı-ayrılıqda müqavilə bağlamaq istəyirdi. Moskva müqaviləsi ilə Türkiyə bir neçə çox ciddi məsələləri həll etdiyindən Sovet Rusiyasının təklifini qəbul edir.

Cənubi Qafqaz respublikalarının Türkiyə ilə danışıqları Rusiya nümayəndəsinin iştirakı ilə 26 sentyabr-13 oktyabr 1921-ci ildə Qars şəhərində keçirilmiş konfransda oldu. Rusiya diplomatiyasına görə konfrans Sovet Rusiyası və Türkiyə arasında Moskvada bağlanmış müqaviləni tamamlamalı idi.

Azərbaycan Xalq Fəhlə-Kəndli Müfəttişliyinin komissarı Behbud ağa Şahtaxtinski AK(b)P MK Siyasi Bürosunun 1921-ci il 26 avqust tarixli qərarı ilə Azərbaycanın konfransdakı nümayəndəsi təsdiq edildi.

Azərbaycan xalq xarici işlər komissarı M.D.Hüseynov qeyd edirdi ki, “Qarsda Azərbaycan güclü təmsil olunmalıdır”. Behbud ağa Şahtaxtinskinin konfransda iştirakı faktının özü Sovet Azərbaycanı rəhbərliyinin vəziyyətin ümumqafqaz nizamlanması kontekstində Naxçıvan probleminin hüquqi baxımdan təsbitində maraqlı olduğunu dolayısı ilə təsdiq edirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan KP-nin rəhbərliyində olan erməni əsilli partiya bossları–S.Danielyan, L.Mirzoyan, A.Mikoyan S.Orconikidze ilə birlikdə hələ 1921-ci ilin iyununda Behbud ağa Şahtaxtinskini danışıqlardan uzaqlaşdırmağa və onu özləri üçün daha əlverişli adamla əvəz etməyə can atırdılar. Nəriman Nərimanovun bu məsələ ilə bağlı dəyişməz mövqeyi sayəsində Behbud ağa Şahtaxtinski fəaliyyətini davam etdirə bildi.

Qars danışıqlarında Azərbaycan SSR-in nümayəndəsi olan Behbud ağa Şahtaxtinskinin əməyi çox böyükdür. Qars danışıqları və burada uzun sürən mübahisə və müzakirələr oktyabrın 13-də imzalanan Qars müqaviləsi ilə nəticələndi. Müqavilə 20 maddə və 3 əlavədən ibarətdir. Bu müqavilə Moskva müqaviləsinin müddəalarını təkrar edirdi. Müqavilədə yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdur. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin V maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular. Müqavilənin bu maddəsində göstərilirdi ki, “Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər”.

Naxçıvan bölgəsinin ərazisi isə müqavilənin III Əlavəsində göstərilən sərhədlər daxilində müəyyən edilirdi. Moskva və Qars müqavilələri Naxçıvanın statusu, ərazisi və tabeçiliyi məsələsini beynəlxalq bir müqavilə ilə tam şəkildə həll etdi.

Beləliklə, Naxçıvan əhalisinin ardıcıl və ciddi mübarizəsi, Azərbaycan və Türkiyə diplomatlarının məqsədyönlü fəaliyyətləri, Behbud ağa Şahtaxtinskinin yazışmaları, diplomatik gedişləri sayəsində və beynəlxalq Moskva və Qars müqavilələri ilə Naxçıvan diyarı Azərbaycanın tərkibində muxtar ərazi kimi qəbul edildi. Bu müqavilələrlə Rusiya, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanımış və ona beynəlxalq hüquqi təminat vermişlər.

Ümumiyyətlə, Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsi, hər şeydən əvvəl, görkəmli dövlət xadimi və mahir diplomat Behbud ağa Şahtaxtinskinin çox böyük tarixi xidmətidir ki, xalqımız onu

bu gün də minnətdarlıqla xatırlayır. Naxçıvan məsələsinə erməni daşnakları, Ermənistan hökuməti ikili mövqedən yanaşır. Ermənistan Gümrü müqaviləsi, 1920-ci il 28 dekabr bəyanatı, ən mühümü isə Qars beynəlxalq müqaviləsi ilə Naxçıvanın muxtariyyət statusunu, onun ərazisini tanıyıb. Lakin ötən əsrin 20-ci illərinin ortalarından başlayaraq Qars müqaviləsinin şərtlərini pozaraq Naxçıvanın Qars müqaviləsi ilə təsbit edilmiş ərazisinin təqribən 15 faizini zəbt etmişdir  və bu gün də Naxçıvanla bağlı iddialarından əl çəkməmişdir. Qeyd etməliyik ki, müasir Ermənistan Respublikasının Naxçıvana qarşı hər hansı ərazi iddiaları heç bir hüquqi əsasa malik deyil və beynəlxalq hüquq normalarına ziddir.